**Məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan ali və orta ixtisas təhsilli tərbiyəçi-müəllimlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması üçün**

# *DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ ÇƏRÇİVƏ SƏNƏDİ*

***2024***

# Mündəricat

**Giriş** ........................................................................................................................3

**Diaqnostik qiymətləndirmə çərçivə sənədinin hüquqi bazası**...........................4

**Test imtahanı mərhələsi** ........................................................................................ 7

**Qiymətləndirmə cədvəli** ......................................................................................... 9

# Giriş

Diaqnostik qiymətləndirmə məktəbəqədər təhsil üzrə kadr potensialının yaxşılaşdırılması üçün işləyən təhsilverənlərin peşəkar inkişafının ehtiyac qiymətləndirilməsinin müəyyənləşdirilməsi baxımından yüksək əhəmiyyətə və praktik faydaya malikdir.

Bu çərçivə sənədi məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan tərbiyəçi-müəllimlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının diaqnostikası üçün hazırlanmışdır. Diaqnostik qiymətləndirmə çərçivəsinin hazırlanmasında Azərbaycan Respublikasının normativ hüquqi aktlarına istinad edilmişdir. Sənəd həm də qabaqcıl beynəlxalq keyfiyyət meyarlarına uyğunlaşdırılmışdır. Belə ki, diaqnostik qiymətləndirmənin məqsədi tərbiyəçi-müəllimlərin keyfiyyət göstəricilərinin *hansı səviyyədə* olduğunu öyrənmək və təhsilverənlərin öz peşəsi üzrə *hansı istiqamətdə* inkişafa ehtiyac duyduğunu müəyyənləşdirməkdir. Deməli, həm daxili, həm də xarici diaqnostika üsullarından istifadə olunmalıdır. Bu o deməkdir ki, diaqnostik qiymətləndirmə imtahan mərhələsi ilə yanaşı, həm də məktəbəqədər təlim mühitinin qiymətləndirilməsi şkalası-3-dən (ECERS-3-ün adaptasiya edilmiş variantı) istifadə, tərbiyəçi-müəllimlərin özünüdəyərləndirmə (özünütəhlil) alətlərinin hazırlanması və s. kimi yolları özündə ehtiva edir.

Diaqnostik qiymətləndirmə çərçivə sənədi tərbiyəçi-müəllimlərin keyfiyyət göstəricilərini *məzmun və metodika, təhlükəsizlik, pedaqoji etika və əməkdaşlıq, özünüinkişaf sahələri* üzrə qruplaşdıraraq həmin sahələrin qiymətləndirilməsində müxtəlif üsulların tətbiq edilməsinə imkan yaradır. Beləliklə, tərbiyəçi-müəllimlərin keyfiyyət göstəriciləri ilə bağlı vahid yanaşma formalaşır və keyfiyyət göstəricilərinin səviyyəsini müxtəlif üsullarla ölçərək dolğun və real məlumat bazası əldə edilir.

Perspektivdə diaqnostik qiymətləndirmə çərçivə sənədi sertifikatlaşdırma prosesinin də proqressiv və keyfiyyətli, beynəlxalq standartlara uyğun keçirilməsinə dəstək olacaq. Bu isə öz növbəsində məktəbəqədər təhsilin bütün iştirakçılarının rifahına müsbət təsir göstərə bilər.

Çərçivə sənədinin hazırlanmasında istifadə olunan holistik yanaşma Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (Məqsəd 4. Keyfiyyətli təhsil) tam cavab verir.

# Diaqnostik qiymətləndirmə çərçivə sənədinin hüquqi bazası

Post-konflikt dövründə Azərbaycan dövləti "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" inkişaf strategiyası ilə keyfiyyətcə yeni bir inkişaf mərhələsinə daxil olmuşdur. Azərbaycan Respublikası öz dövlətçilik tarixinin strateji dövründə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımını və maliyyə dayanıqlılığını daha da gücləndirmək, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir[1].

"Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində bu inkişafın vektor artımı ilə deyil, keyfiyyət səviyyəsi ilə baş verməsinin əsas məqsəd olduğu xüsusi vurğulanmışdır. Məhz bu məqsədlə "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuş və bu prioritetlərə söykənən "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır.

Məktəbəqədər təhsil Milli Prioritetlər sırasındadır və "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədində inkişaf siyasətinin kritik əhəmiyyətə malik olan bir komponenti kimi qəbul edilir. Belə ki, sənəddə məktəbəqədər təhsilə cəlb edilmiş 1–5 yaşlıların payının 50%- ə çatdırılması hədəf kimi qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırılmış bu sənəddə ölkə üzrə məktəbəqədər təhsilin əhatəlilik göstəricilərinin yaxşılaşdırılması ilə yanaşı, məktəbəqədər təhsilin məzmununun yenilənməsi, pedaqoji heyətin və idarəetmə heyətinin peşəkarlığının artırılması, məktəbəqədər təhsilin keyfiyyət təminatı sisteminin yaradılması kimi tapşırıqlar da qarşıya qoyulmuşdur və burada kəmiyyət deyil, *keyfiyyət* önə çıxarılmışdır (bax: cədvəl 1.).

**Cədvəl 1.**

| **MİLLİ PRİORİTET 3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı** | | | |
|---|---|---|---|
| **MƏQSƏD 3.1.** XXI əsrin tələblərinə uyğun təhsil | | | |
| **FƏALİYYƏT İSTİQAMƏTİ: 3.1.1.**<br>Erkən yaş dövründə səmərəli təhsil modelinə əsaslanan məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması | | | |
| Məktəbəqədər təhsil üzrə dövlət standartlarının və təhsil proqramının təkmilləşdirilməsi, məktəbəqədər təhsil sistemində çalışan pedaqoji və idarəetmə heyəti üçün ixtisasartırma təlimlərinin təşkil edilməsi | Məktəbəqədər təhsilin keyfiyyət təminatı sisteminin yaradılması və xarici keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi | Alternativ təhsil və maliyyələşmə modelləri (icma əsaslı məktəbəqədər təhsil, valideyn–dövlət–özəl əməkdaşlığı və s.) əsasında əhatəliliyin artırılması | Qabaqcıl təcrübə əsasında məktəbəqədər təhsil üzrə pedaqoji və idarəetmə heyətinin sertifikatlaşdırılması sisteminin yaradılması və tətbiqi |

Diaqnostik qiymətləndirmə çərçivə sənədi məqsəd 3.1.-in (XXI əsrin tələblərinə uyğun təhsil) fəaliyyət istiqamətlərini rəhbər tutmaqla bərabər Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanununda yer almış maddə 4.0.10. “Məktəbəqədər təhsil müəssisələrinə elmi- metodik rəhbərliyi və təlim-tərbiyə prosesinin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək” və maddə 4.0.16. “Dövlət məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə prosesini və idarəetməni təkmilləşdirmək, bu müəssisələri ixtisaslı pedaqoji işçilərlə... təmin etmək” kimi dövlətin üzərinə düşən vəzifələrdən çıxış edərək hazırlanmışdır.

Diaqnostik qiymətləndirmə çərçivəsinin hazırlanması üçün müəllimlərin kvalifikasiya göstəricilərini (işləyən tərbiyəçi-müəllimin peşəkar dəyərləri, bilik və bacarıqları) aydınlaşdırmaq mütləqdir və bunu Azərbaycan Respublikasının məktəbəqədər təhsil sahəsi ilə bağlı normativ hüquqi sənədlərə əsasən müəyyənləşdirmək mümkündür:

1. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanununun 16 və 18-ci maddələrinə əsasən peşəkar tərbiyəçi-müəllim siması haqqında təsəvvür yaranır.
   Tərbiyəçi–müəllim:
   - məktəbəqədər təhsil sahəsi üzrə ali və ya orta ixtisas təhsili olan;
   - uşaqların tərbiyəsini, hərtərəfli inkişafını, məktəbəhazırlıq təlimini təşkil edən və həyata keçirən;
   - məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərini, dövlət standartları və təhsil proqramını (kurikulum) rəhbər tutan;
   - təhsilin məzmunu, təhsil sahəsində uşaqların hüquqları və öz hüquq və vəzifələri haqqında biliklərə malik olan şəxsdir.

2. Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi tərbiyəçi-müəllimdən gözlənilən kvalifikasiya göstəricilərini müəyyənləşdirməyə kömək edir:
   - 5.6.2. ixtisasını artırmaq, peşəkarlıq səviyyəsini yüksəltmək və attestasiyadan keçmək;
   - 5.6.3. dövlət təhsil standartlarına uyğun olaraq, təhsilalanların zəruri bilik və həyati bacarıqlara yiyələnməsini təmin etmək;
   - 5.6.5. təhsilalanları Azərbaycan xalqının dilinə, adət və ənənələrinə, mənəvi dəyərlərə, dövlət rəmzlərinə hörmət, azərbaycançılıq, vətənpərvərlik ruhunda tərbiyə etmək;
   - 5.6.6. uşaqların şərəf və ləyaqətinə hörmət etmək, pedaqoji etika və əxlaq normalarına riayət etmək, təhsil işçisi adını yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;
   - 5.6.7. uşaqların təhlükəsizliyinin və sağlamlığının qorunmasında bilavasitə iştirak etmək, onları fiziki və psixi zorakılığın bütün formalarından qorumaq;
   - 5.6.8. uşaqların təlim-tərbiyəsi və inkişafı ilə bağlı valideynlərlə əməkdaşlıq etmək;
   - 5.6.9. təhsilalanları müəyyən edilmiş təhsil standartları əsasında məktəb təliminə hazırlamaq.

Yuxarıda qeyd edilənlərə əsaslanaraq tərbiyəçi-müəllimin peşə yararlılığının göstəriciləri müəyyənləşdirilmişdir. Qiymətləndirməni optimallaşdırmaq məqsədi ilə həmin kvalifikasiya göstəriciləri aşağıdakı sahələr üzrə qruplaşdırılmışdır:

| | |
|---|---|
| Məzmun və metodika | Erkən uşaqlıq dövrü və məktəbəqədər təhsil üzrə dövrün tələbinə uyğun pedaqoji və psixoloji elmi biliklər və metodiki bacarıqlara malik olması;<br><br>Təlimin təşkilində müəllimyönümlü və uşaqyönümlü yanaşmaları fərqləndirə bilməsi, ikinci yanaşmaya üstünlük verməsi;<br><br>Təlim prosesini idarə etməsi, dəyərləndirməsi və proqnozlaşdırması. |
| Təhlükəsizlik | Uşaqların sağlamlığının qorunmasını (gigiyena və ilkin tibbi yardım bacarıqları) təmin etməsi;<br><br>Uşaqların həyatına təhlükə yarada biləcək situasiyalar zamanı (yanğın,zəlzələ, terror aktı və s.) təhlükəsizlik tədbirlərini görməsi;<br><br>Psixoloji və sosial şiddətdən (zorakılıq, sosial qısnama və s.) qabaqlayıcı və müdafiə tədbirlərini görməsi;<br><br>Məlumat təhlükəsizliyini və konfidensiallığı təmin etməsi. |
| Pedaqoji etika və əməkdaşlıq | Pedaqoji kollektiv ilə qarşılıqlı əlaqə;<br><br>Valideynlərlə konstruktiv ünsiyyət;<br><br>Pedaqoji etik davranış;<br><br>Hüquqi savadlılıq. |
| Özünüinkişaf | Özünütəhlil, tədqiqatçılıq, özünütəhsil;<br><br>Özünüidarə və özünübərpa (stresə davamlılıq) bacarıqlarının əhəmiyyətinin fərqində olması və onları tətbiq etməsi;<br><br>Öz hüquqlarını tanıması və qanuni yollarla müdafiə etməsi. |

Cədvəldə göstərilən sahələrin Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartlarında qeyd edilən təhsil işçilərinin keyfiyyət göstəriciləri ilə əlaqəliliyi qorunaraq, təhsil pillələri arasında varislik prinsipi təmin edilmişdir.

# Test imtahanı mərhələsi

| № | Sahələr | Mövzular |
|---|---|---|
| 1. | **Məzmun və metodika** | Məktəbəqədər təhsilin inkişaf sahələri və standartları<br>Təlim və fəaliyyətlərin planlaşdırılması, təşkili, idarəedilməsi, dəyərləndirilməsi, proqnozlaşdırılması və s.<br>Psixo-pedaqoji nəzəri əsaslar:<br>• Uşaq şəxsiyyətinin formalaşması (ünsiyyət tələbatı, emosional-iradi inkişafı)<br>• Uşaqlarda yaşına görə öyrənmə xüsusiyyətləri<br><br>Metodika:<br>• Fiziki tərbiyə (sensor, böyük və kiçik motor bacarıqları)<br>• Ətraf aləmlə tanışlıq<br>• Nitq inkişafı<br>• Bədii təfəkkürün inkişafı<br>• Məntiqi və riyazi təfəkkürün inkişafı<br>• Savad təliminin inkişafı<br>• Uşaqlarda özünəxidmət və əmək vərdişlərinin formalaşması<br>• Oyunlar və onların təlimdə tətbiqi xüsusiyyətləri<br><br>Fəaliyyət mərkəzləri və onların xüsusiyyətləri |
| 2. | **Təhlükəsizlik** | Uşaq hüquqları (konfidensiallıq və s.)<br>Gigiyena qaydaları və ilkin yardım<br>Xarici və daxili öyrədici mühitdə təhlükəsizliyin təmin edilməsi<br>İnklüziv təhsil mühitinin təşkili:<br>• Bütün uşaqlarda yaradıcılığın dəstəklənməsi və həvəsləndirilməsi<br>• Müxtəlif mədəniyyətli uşaqlarla iş və gender bərabərliyi |
| 3. | **Pedaqoji etika və əməkdaşlıq** | Pedaqoji etika<br>Valideynlərlə iş formaları<br>Müəllimin ünsiyyət, qarşılıqlı əlaqə, əməkdaşlıq bacarıqları və konfliktlərin idarə edilməsi:<br>• uşaq-uşaq;<br>• uşaq-böyük;<br>• böyük-böyük. |
| 4. | **Özünüinkişaf** | Tərbiyəçi-müəllimin hüquq və vəzifələri<br>Özünütəhlilin və stresə davamlılığın xüsusiyyətləri |

**Tərbiyəçi-müəllimlər üçün tövsiyə olunan ədəbiyyat:**


1. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu (2017) https://e-qanun.az/framework/35791
2. Təhsilverənlərin etik davranış qaydaları (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2024-cü il 15 may tarixli, KQ-07 nömrəli Qərarı) https://e-qanun.az/framework/56915
3. Məktəbəqədər təhsil kurikulumu (2022) https://edu.gov.az/uploads/mektebeqeder/sened/2023/M%C9%99kt%C9%99b%C9%99q%C9%99d%C9%99r%20t%C9%99hsil%20proqram%C4%B1%20%28kurikulum%29.pdf
4. Məktəbəqədər pedaqogika (A.Həsənov, 2000)
5. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası (Y.Kərimov, 1997)
6. Məktəbəqədər təhsil: Tərbiyəçi-müəllimlər və metodistlər üçün stolüstü kitab (L.Cəfərova, 2019)
7. Sadə riyazi təsəvvürlərin formalaşması metodikası (S.Hacıyeva)
8. Təsviri sənət və onun tədrisi metodikası (M.Əkbərova, 2012)
9. Ətraf aləm və təbiətlə tanışlıq metodikası-2 (Tərtibatçı: S. Mütəllimova 2020)
10. Uşaqyönümlü, demokratik məktəbəqədər təhsil (2021) https://drive.google.com/file/d/1_oE-CjMP-2u5N4i9lozTXbyhquPATGQE/view
11. Məktəbəqədər təhsil proqramınınn (kurikulumun) tətbiqinə dair metodiki tövsiyələr https://arti.edu.az/wp-content/uploads/2023/03/M%C6%8FKT%C6%8FB%C6%8FQ%C6%8FD%C6%8FR-T%C6%8FHSIL-PROQRAMININ-KURIKULUMUN-T%C6%8FTBIQIN%C6%8F-DAIR-METODIK-TOVSIY%C6%8FL%C6%8FR.pdf
12. Fiziki mədəniyyət məşğələsində uşaqyönümlü yanaşmanın praktik nümunəsi (məktəbəhazırlıq qrupu) https://arti.edu.az/wp-content/uploads/2023/02/Fiziki-m%C9%99sg%C9%99l%C9%99-numun%C9%99si.pdf
13. Uşaqlarda düzgün qaməti necə formalaşdırmalı? https://arti.edu.az/wp-content/uploads/2022/12/Usaqlarda-duzgun-qam%C9%99ti-nec%C9%99-formalasdirmali.pdf


*Qeyd: Əgər tövsiyə olunan ədəbiyyatda məlumatlar burada göstərilən rəsmi sənədlərdəki məlumatlarla üst-üstə düşmürsə, rəsmi sənədlərdəki məlumatlar etibarlı mənbə sayılmalıdır.*

# Qiymətləndirmə cədvəli

Diaqnostik qiymətləndirmə tərbiyəçi-müəllimin öz peşəsi üzrə inkişaf ehtiyaclarını müəyyənləşdirmək üçündür. Diaqnostika zamanı tərbiyəçi-müəllimlərin kvalifikasiya göstəricilərinin sahələri üzrə bilik və bacarıqların təməl səviyyədə olması tələbi qiymətləndirmə etalonu kimi müəyyən edilir. Bu səbəbdən, test imtahanı zamanı asan və orta çətinlik dərəcəli suallardan istifadə etmək məqsədəmüvafiqdir.

Test imtahanı mərhələsinin sualları aşağıdakı meyarlarda əks olunur. Soldakı sütunda sahələrə görə ümumi sual sayı qeyd edilmişdir. Sahələrə görə müəyyənləşmiş mövzular üzrə fakt, anlayış, prinsip (qaydalar, xassələr, qanunlar) və situasiya tipli sualların hazırlanması nəzərdə tutulur. Sağdakı sütunda imtahan suallarının çətinlik səviyyələrini müəyyənləşdirmək üçün Blum taksonomiyasının mərhələləri idrak səviyyələrinin yaxınlığına görə qruplaşdırılaraq ardıcıllıqla verilmiş, tapşırıqların say aralıqları göstərilmişdir. Həmin rəqəmlər testə daxil ediləcək sualların minimum və maksimum sayını göstərir. Məsələn, əgər say aralığı “2-4” kimi göstərilibsə, bu, müvafiq sual sayının minimum 2, maksimum 4 olacağını bildirir.

| | | **asan:** | **orta:** | **ümumi** |
|---|---|---|---|---|
| **Məzmun və metodika**<br>ümumi sual sayı: 39 | Xatırlamaq və anlamaq: | 5-10; | 5-10; | 10-19 |
| | Tətbiq etmək və təhlil etmək: | 10-15; | 10-15; | 15-20 |
| | Dəyərləndirmək və yaratmaq: | 0-1; | 0-1; | 0-2 |
| **Təhlükəsizlik**<br>ümumi sual sayı: 10 | Xatırlamaq və anlamaq: | 2-4; | 2-4; | 4-6 |
| | Tətbiq etmək və təhlil etmək: | 2-3; | 1-2; | 2-4 |
| | Dəyərləndirmək və yaratmaq: | 0-1; | 0-1; | 0-2 |
| **Pedaqoji etika və əməkdaşlıq**<br>ümumi sual sayı: 7 | Xatırlamaq və anlamaq: | 2-3; | 1-2; | 3-4 |
| | Tətbiq etmək və təhlil etmək: | 1-2; | 1-2; | 2-3 |
| | Dəyərləndirmək və yaratmaq: | 0-1; | 0-1; | 0-1 |
| **Özünüinkişaf**<br>ümumi sual sayı: 4 | Xatırlamaq və anlamaq: | 1-2; | 1-2; | 1-2 |
| | Tətbiq etmək və təhlil etmək: | 1-2; | 0-2; | 1-2 |
| | Dəyərləndirmək və yaratmaq: | 0-1; | 0-1; | 0-1 |

***Qeyd:*** *İmtahanda iştirakçılara 60 sual təqdim olunur. Hər imtahan sessiyasındakı sualların sayı cədvəldəki xanalarda qeyd olunan aralıqlara uyğun olaraq dəyişə bilər.*

**Qiymətləndirmə cədvəlinin aşağıdakı üstünlükləri var:**

- Testin məzmununun validliyini (ölçülməsi əvvəlcədən nəzərdə tutulmayan məsələlər ölçülmür) təmin edir;
- Qiymətləndirmə vasitələrini hazırlayanlar, imtahanda iştirak edənlər və digər maraqlı tərəflər üçün seçilən məzmun sahələri və fəaliyyət səviyyələrinin vacibliyini vurğulayır;
- Qiymətləndirmə vasitələrini tərtib edənlərin məzmun və bacarıqlar arasında gözləməli olduqları balansı göstərir;
- Müxtəlif qruplar üçün oxşar imtahanların qurula bilməsi imkanını yaradır;
- Cədvəlin sonuncu sütununda məzmun sahələrinə dair tapşırıqların sayının verilməsi tərtibetmə zamanı məzmun sahələri üzrə balansı saxlamağa imkan verir.